MUSİQİ DÜNYASI 1/74 2018

# QARA QARAYEV - 100
# PİANOÇULARIN V RESPUBLİKA ELMİ-İFAÇILIQ MÜSABİQƏSİ

Vəfa HƏMİDOVA

*"Xalq musiqisinə sırf qoruyuculuq baxımından yanaşanda o, muzey eksponatına çevrilir"*
*Qara Qarayev*

XXI əsrin zəngin uşaq musiqi müsabiqələri palitrası arasında Azərbaycanda Qara Qarayev adına elmi-ifaçılıq müsabiqəsinin yeri məxsusidir. İllərdir davam edən və artıq 35 ilini başa vuran bu elmi-ifaçılılq müsabiqəsinin, məhz dahi bəstəkarın anadan olmasının 100 illiyinə təsadüf etməsi onu daha da böyük sevindirici hadisəyə çevirmişdir.

Müsabiqənin yaranma tarixçəsi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası Orta ixtisas musiqi məktəb-studiyasının yaradıcısı və rəhbəri professor Tərlan Seyidovun adı ilə bağlıdır. Məsələ bundadır ki, bu uzaqgörən insan və rəhbər, həm də alim və musiqiçi uşaqların mükəmməl bir ifaçı, hərtərəfli musiqiçi kimi yetişməsində uğurlu və əhəmiyyətli işlər görmüşdür. Bu müsabiqənin layihəsini çizmək və onu həyata keçirməzdən əvvəl o, özünün idarə etdiyi eksperimental tədris ocağında keçirilən dərslərdə bunun təməlini artıq qoymuşdur. T.Seyidov, təhsil ocağında ətrafına özünəlayiq, qabil, savadlı kadrlar toplayaraq, burada çalışan müəllimlərə yeni üslublu, tamamilə başqa tərzdə, fərqli yanaşmalı dərslər keçməyi həm tövsiyə edir, həm də bir rəhbər olaraq bunu onlardan tələb etmişdir. Onun innovasiyalı işləri sayəsində məktəbin ifaçı-şagirdlərini, nəinki gözəl ifaya yiyələndirmək, eyni zamanda ifa etdiyi əsərin bəstəkarını, onun yaşayıb-yaratdığı dövrü, üslubunu, dəst-xəttini, öz müəllimi ilə bərabər araşdıraraq, müzakirə - müqayisə prinsipilə əsərin bədii və quruluş təhlilini apararaq öyrənməklə qoyulan məqsədə nail olundu. Bundan sonra əldə olunan təcrübəni digər məktəblərlə bölüşmək və bu barədə daha böyük məcrada işlər görmək, daha geniş kütləyə səs salıb, bu sahədə onları da maarifləndirib inkişaf etdirmək fikri ilə müsabiqənin eskizləri atılır. Beləliklə də, qeyd etdiyim kimi illər öncədən keçirilən bu elmi-ifaçılıq müsabiqəsinin bünövrəsi bax, beləcə qoyulur.

Yüksək nəticələr göstərən elmi-ifaçılıq konfrans və müsabiqələri ildən-ilə daha uzaq məkanlara səs salaraq, istər paytaxtımızdakı məktəbləri, istərsə də onun müxtəlif bölgələrini cəlb etməyi bacarmışdır. Bu tədbirlərin geniş miqyaslı olması xüsusilə qürurverici bir haldır. 1983-cü ildən bəri hər il mütəmadi olaraq, öncə Akademiya və şəhər daxilində, sonra respublika müsabiqəsi, daha sonra isə beynəlxalq səviyyə alması onun nə dərəcədə böyük marağa və inkişafa səbəb olmasının bariz sübutudur.

Vurğulamaq lazımdır ki, 2010-cu ildə Bakıda Qara Qarayev adına Birinci Beynəlxalq elmi-ifaçılıq müsabiqəsi keçirilmiş, üstündən beş il ötdükdən sonra bu hadisə ölkəmizdən kənara sədalanaraq 2015-ci ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında professor T.Seyidovun sədrliyi ilə onun müəllif layihəsi olaraq "Müasir bəstəkarın yaradıcılıqlarının mədəni-maarif məkanı" adlı Beynəlxalq elmi-ifaçılıq konfransı baş tutmuşdur. Böyük müvəffəqiyyət qazanan həmin konfransa şagird, tələbə və müəllimlər də cəlb olunmuşdur. Bu layihənin təkcə Rusiyada deyil, həmçinin Avropanın da bir neçə ölkəsində irəliləməsi müşahidə olunur və dəstəklənir.




Müsabiqənin adının XX əsrin dahi novatoru Qara Qarayevin adı ilə bağlı olması da təsadüfi deyil. Bu, onun da əqidəsi və prinsiplərinə yad olmayan, yenilikçi və maarifləndirici ideyaların real təcəssümüdür. Respublikamızda keçirilən elmi-ifaçılıq müsabiqəsinin dinamikası inkişaf edərək digər şəhər və vilayətlərlə bərabər bir çox kənar əyalət və bölgələrə irəliləyərək onları da buraya cəlb etmişdir.

"Qara Qarayev - 100" adlı bu ilki "Pianoçuların V Respublika elmi-ifaçılıq müsabiqəsi" Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında 2 aprel tarixində açıq elan edilmişdir.

Müsabiqənin münsiflər heyətinin sədri - BMA-nın rektoru, xalq artisti, professor Fərhad Bədəlbəyli, həmsədri - ideya müəllifi və təşkilatçısı, Orta ixtisas musiqi məktəb-studiyanın rəhbəri, əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Tərlan Seyidov, üzvləri - BMA-nın tədris işləri üzrə prorektoru, Azərbaycan Respublikasının əməkdar müəllimi, pedaqoji elmlər üzrə fəlsəfə doktoru, professor Nərminə Quliyeva, məhz bu müsabiqədən ötürü İstanbuldan bizə təşrif etmiş bəstəkarın qızı İstanbul Dövlət Konservatoriyasının İspirtixane mədəniyyət və sənət mərkəzinin fortepiano şöbəsinin müdiri Züleyxa Qarayeva-Bağırova, BMA-nın fortepiano fakultəsinin dekanı, Azərbaycan Respublikasının əməkdar müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Nəzakət Rimazi, BMA-nın baş müəllimi və BMA-nın Orta ixtisas musiqi məktəb-stidiyasının direktor müavini Sevda Məmmədova, BMA-nın baş müəllimi və məktəb-stidiyanın müəllimi Nərgiz Mansurova, BMA-nın dosenti və məktəb-studiyasının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Mədinə Tuayeva, Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, BMA-nın məktəb-studiyasının müəllimi Gülbəniz Abdullayeva, G.Şaroyev adına 35 №li 11 illik musiqi məktəbinin və BMA-nın Orta İxtisas musiqi məktəb-studiyasının müəllimi Nüşabə Quliyeva olmaqla müsabiqənin açılış tədbiri bir sıra çıxış, məruzələrə və keçmiş qaliblərin, eləcə də keçmiş müsabiqə iştirakçılarının konsert çıxışlarına əsaslanan elmi və bədii hissəyə ayrılmışdır.

Açılış tədbirində rektor Fərhad Bədəlbəylinin ön sözlə çıxışı və iştirakçılara uğurlar diləyərək müsabiqəni açıq elan etməsi iştirakçılara xüsusi qürur və şərəf hissi yaşatdırdı. Q.Qarayevin qızı Züleyxa Bağırova-Qarayeva, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin elm, təhsil və gənclərlə iş şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru Yaşar Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Azərbaycanın əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Qafarova da Qara Qarayev haqqında, o cümlədən innovasiya xarakterli bu müsabiqələrin ideya müəllifi barədə, onların elmi-ifaçılıq və maarifləndirici əhəmiyyəti, gələcək davamiyyəti haqqında gözəl çıxışlar edərək, iştirakçıları ruhlandırdılar.

Açılış tədbiri Sevda Məmmədova tərəfindən: "Qara Qarayevin yaradıcılığı Azərbaycan musiqiçi-ifaçıların təcrübəsində güclü stimul kimi", quruluşçu rejissor Elvin Mirzəyevin "Məktəb-studiyasının Uşaq Musiqi Teatrı şagirdlərinin komplekssəkilli təhsil formalarından biri kimi", məktəb-studiyanın böyük elmi işçisi və müəllimi Elmira Mustafayevanın "Məktəb-studiyanın yeni fənni - İfa olunan əsərlərin bədii və struktur təhlili" və s. mövzuları üzrə səslənən geniş məruzələrlə ab-hava bir qədər də canlanır və bədii hissə ilə yekunlaşdırılır.

Müsabiqə bir həftə ərzində hər gün münsiflər heyətinin rəhbərliyi ilə səhər saatlarından ən gec axşam saatlarınadək dinlənilir, müzakirə edilir və qiymətləndirilir. Pianoçuların V elmi ifaçılıq müsabiqəsi 3 yaş qrupu üzrə - ən kiçik (9 yaş) iştirakçıdan tutmuş, ən böyük iştirakçıya - Bakı Musiqi Akademiyası, Pedaqoji Universitet, AMK-nın nəzdində Musiqi Kolleci tələbələrinə kimi keçirilmişdir. Burada Bakı, eləcə də, Respublikanın digər şəhər və bölgələrindən - Şəki, Şirvan, Şamaxı, Gəncə, Mingəçevir, Quba, Goranboy,


Üzeyir Hacıbəyli adına
BAKI MUSİQİ AKADEMİYASI
BMA-nın ORTA İXTİSAS MUSİQİ MƏKTƏB-STUDİYASI
QARA QARAYEV-100
4 – 11 aprel 2018-ci il
PİANOÇULARIN V RESPUBLİKA ELMİ-İFAÇILIQ MÜSABİQƏSİ
TƏŞKİLAT KOMİTƏSİNİN VƏ MÜNSİFLƏR HEYƏTİNİN SƏDRİ -
BƏDƏLBƏYLİ
LAYİHƏNİN MÜƏLLİFİ VƏ BƏDİİ RƏHBƏRİ -
SEYİDOV
MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ
MÜSABİQƏNİN YAŞ QRUPLARI
MÜSABİQƏ ÇƏRÇİVƏSİNDƏ ELMİ-İFAÇILIQ KONFRANSI KEÇİRİLƏCƏK.

Qəbələ, Oğuz, Göyçay, Ağdaş, Ceyranbatan və s. Azərbaycanın bərəkətli torpaqlarından iştirakçılar çıxış edir.

Gərgin iş prosesilə davam edən bu həyəcanlı, ağır müsabiqə həftəsi aprel ayının 9-da tamamlandı. Müsabiqənin təntənəli bağlanış tədbiri BMA-nın Böyük zalında həyata keçirildi. Ciddi və ədalətli münsiflərin həyəcanverici və ən çox balaca ürəklərdə təlatüm yaradan qərarı, məhz burada açıqlanmalı və qaliblər öz mükafatları ilə təltif olunmalı idi. Bəli, həmin an gəlib çatdı. Bethovenin V simfoniyasının "tale mövzusu" iştirakçı qulaqlarında və qəlblərində səslənir... və... beləliklə, münsiflər nəticələri açıqlamaq üçün səhnəyə dəvət olunur. Tədbirin idarəedici qüvvəsi münsiflər heyətinin üzvü Sevda Məmmədova bir-bir iştirakçıların adlarını səsləndirərək, onları təltif etmək üçün münsiflər heyətinin digər üzvlərinə Nərminə Quliyeva, Züleyxa Qarayeva-Bağırova və həmsədri Tərlan Seyidova bu işi həvalə etdi. Beləliklə, 11 laureat və 32 diplomant öz dəyərli mükafatlarını aldılar. Onu da deyim ki, digər iştirakçılar da öz yurdlarına əliboş qayıtmadılar. Həvəsləndirici diplomlar onlara gələcək müsabiqələrə hazırlıq üçün bir stimul olacaqdır. II və III dərəcəli laureatlar arasında - Bakıdan Şirin Əmiraslanova (G.Şaroyev ad. 35 №-li 11 illik Musiqi Məktəbi, müəl. - S.Sinamdzqvarişvili, S.İbrahimova), Amin Zülfüqarlı (R.Babayev ad. 25 №-li 11 illik Musiqi Məktəbi, müəl. - O.Fərzəliyeva, L.Ramazanova), Səmra Həsənli (G.Şaroyev ad. 35 №-li 11 illik Musiqi Məktəbi, müəl. - K.Ələsgərova, N.Quliyeva), Əsmər Alxazova (AMK nəzdində Musiqi Kolleci, müəl. - E.Əliyeva, A.Quliyeva), Fidan Əmişova (G.Şaroyev ad. 35 №-li 11 illik Musiqi





MUSİQİ DÜNYASI 1/74 2018



Məktəbi, müəl. - S.Sinamdzqvarişvili, S.İbrahimova), Lənkərandan Sudana Cavadzadə (C.Cabbarlı ad. 1 №-li Uşaq Musiqi Məktəbi, müəl. - S.Əliyeva), Gəncədən Fidan Bayramova (4 №-li Uşaq Musiqi Məktəbi, müəl. - M.Mirzəyeva, M.Paşayeva), Göyçaydan Şöləxanım İbrahimli (A.Məmmədov ad. Uşaq Musiqi Məktəbi, müəl. - X.Veysəlova, A.İslamova), Şirvandan Fidan Əkbərli (Uşaq Musiqi Məktəbi, müəl. - Ə.Nağıyeva), Yevlaxdan Sevda Feyzullayeva (Xaldan kənd Uşaq Musiqi Məktəbi, müəl. - Ü.Kərimova, B.Kərimova, E.Nəcəfova) seçilmişlər. Pianoçuların Respublika elmi ifaçılıq müsabiqəsinə Laureatların Qala konserti ilə yekun vuruldu.

Müsabiqənin tam qalibi olaraq BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasının şagirdi Daniil Tyurin I dərəcəli laureat adı ilə təltif olundu. Düşünürəm ki, Daniilin müsabiqəyə yekun vuran, bütün dinləyiciləri valehedici, yaşına görə təəccübləndirən piano çalğısı da onun haqlı olaraq bu yerə layiq görülməsinin sübutudur. BMA-nın Orta ixtisas musiqi məktəb-studiyasında təcrübəli və işinə qarşı tələbkar yanaşan müəllimlərimizdən olan Nərgiz Mansurovanın sinfində bir ildən az müddətdir ki, təhsil almağına baxmayaraq, o, bu müəllimdən bəhrələnərək artıq iki konsert və bir müsabiqədə iştirak edərək, mükəmməl qələbə əldə etmiş və dinləyicilərin də ən yüksək rəyini qazanmışdır. Öz növbəmdə bu məktəbin nümayəndəsi olaraq, göstərilən nəticəyə görə əməkdaşımız Nərgiz xanımı, eləcə də şagirdimiz Daniil Tyurini, onun valideynlərini ürəkdən təbrik edir, gələcək müvəffəqiyyətlərə də yolunuzun açıq olmasını diləyirəm.

Sevindirici hal kimi, laureatlar arasında rayonların hətta ucqar kəndlərindən olan şagirdlərin də yer tutmasını qeyd etmək istərdim. Məsələn, Sevda Feyzullayeva adlı iştirakçı Yevlaxın Xaldan kəndinin Uşaq Musiqi Məktəbini təmsil edərək III dərəcəli laureat adına layiq görülmüşdür.

Sonda isə əvvəldə gətirdiyim sitata qayıdaraq, Q.Qarayevin milli dəyərlərə və eləcə də onun qədər əhəmiyyətli olan tədris və ifaçılığa həssas yanaşaraq, onların toxunulmazlığına xidmət etməklə bərabər keçilməmiş yollar, yeni metodlar, fərqli tərzlər açaraq onu muzey eksponatı kimi deyil, daim inkişafa yönələn novator üsullarla təravətli saxlamaq lazım... Məhz, bu əqidənin sahibi olan T.Seyidovun innovasion layihələrinin də əhəmiyyəti danılmaz, həyata keçirilməsi isə böyük bir nəsil üçün əsl məktəbdir.